ƏDƏBİYYAT QƏZETİ

## Çapdan çıxmışdır

# "Millətə xitab"

Vaxtilə Firidun bəy Köçərli Abbas ağa Nazirin yaradıcılığını yüksək dəyərləndirərək Abdulla Şaiqə yazırdı: "Rus şairlərinin əsərlərindən türkcə tərcümə etmək üçün Abbas ağa Nazir təxəllüsə müraciət etmənizi səlah görürəm. Cənab Abbas ağanın çox səlamət və rəvan təbi var və özü rus dilini kamil bilir".

Təəssüf ki, belə bir şairin əsərləri indiyə kimi geniş oxucu kütləsinə az məlum idi. Yalnız tədqiqatçı ədəbiyyatşünaslar onun adını xatırlayırdılar. Amma bu yaxınlarda yazıçı-jurnalist Şəmistan Nəzirlinin tərtibində ilk dəfə olaraq Abbas ağa Nazirin şeirləri küll halında işıq üzü görmüşdür.

"Millətə xitab" adlanan kitaba tərtibçi ön söz yazmış, şərhlər vermiş, alınma sözlər üçün lüğət tərtib etmişdir. Kitabda toplanan şeirlər maarifçilik əhval-ruhiyyəsi, xalqın, xüsusən də gənclərin taleyinə narahatçılığı, ibrətamizliyi ilə diqqəti çəkir.

Kitaba şairin "Rübailər"i ilə yanaşı M.F.Axundovun və Qraf Tolstoyun xatirəsinə həsr olunmuş şeirləri; "Millətə xitab", "Fəryad eylərəm", "Təraneyi-milliyə", "Vətən", "Nəsihət", "Məktəb", "İstərəm" və sair əsərləri toplanmışdır.

Ş.Nəzirli əsərə yazdığı ön sözdə deyir: "Ömrünü nadanlar arasında keçirən hürriyyət şairimiz Abbas ağa Nazirin sağlığında Firidun bəy Köçərlidən başqa onun şəxsiyyətinə və poeziyasına qiymət verən olmamışdır. Saf qəlbi nurlu olan Nazir qaranlıq kənd mühitində qələminə sarılıb qiymətli əsərlər yazdı, dahi Firdovsini ilk dəfə doğma dilimizə tərcümə etdi. Amma qədir-qiyməti bilinmədi..." Amma insan ömrünün ölümdən sonra davamı da var. Bu nə əsil-nəcabətlə, nə şan-şöhrətlə, nə də qoyub getdiyi mal-dövlətlə ölçülür. İnsan ömrü yalnız qoyub getdiyi əməlləri ilə, ağıllı müdrik sözləri ilə davam edir. Bu əməllər, sözlər yaşadıqca insanın da qədir-qiyməti gec-tez üzə çıxacaq.

Bunu Abbas ağa Nazir də bilirdi:

*Nə qövm və nə əqrəbayə bağla ümid,*
*Nə dost və nə aşinayə bağla ümid.*
*Öz zəhmətü səyin kəsb et ruzi*
*Ruzidə olan Xudayə bağla ümid.*

Elə Şəmistan Nəzirlinin zəhməti sayəsində özündə Nazirin külliyyatının bir qismini cəmləşdirən "Millətə xitab" kitabı da sənətkar ömrünün davamıdır. "Şirvannəşr"də işıq üzü görmüş kitabın elmi redaktoru Arif Ramazanovdur.

Kitabda şairin və onun yaxınlarının nadir fotoşəkilləri də verilmişdir. Onların sırasında Qayıbovlar nəslindən olan, vəzifə borcunu yerinə yetirərkən xaincəsinə öldürülən ədliyyə generalı İsmət Qayıbovun da şəkli var.

**İ.Atababa**